# Şəhriyar del Geraninin sonuncu şeir kitabı




Son illərin ən parlaq imzalarından olan şair Şəhriyar Del Geraninin "Gecəniz şeirə" şeirlər kitabı çapdan çıxdı.

Kulis.azın verdiyi xəbərə görə, kitabda 33 yeni şeir toplanıb. Müəllifin ilk şeirlər kitabı olan "Darıxmağın adı"ndan isə oxucuların ən çox sevdiyi, məşhur 12 şeir seçilib. Kitabda ümumilikdə 45 şeir yer alıb. Bu vaxtacan heç yerdə çap olunmamış şeirlər də var.

Kitab mağazalarda satışda olmayacaq, yalnız imza və təqdimat günləri satışa çıxarılacaq. Kitabın satış qiyməti şəhərlərdə 5 manat, rayon və kəndlərdə 3 manat nəzərdə tutulub.

Müəllifin bildirdiyinə görə, kitab uğurlu qarşılanarsa, növbəti tiraj öz hesabına 10 min nüsxə çıxacaq. Kitabdakı yeni 33 şeirin hamısı bir qadına yazılıb.

"Gecəniz şeirə" müəllifin sonuncu şeirlər kitabıdır. Bundan sonra o, şeirlər kitabı çap etdirməyəcək.

Kaspi 2019.- 28-30 sentyabr.- S.9.